## XATİRƏSİNİN ƏBƏDİLLƏŞDİRİLMƏSİ

### DÜNYA ŞÖHRƏTLİ AZƏRBAYCANLI ALİM LÜTFİ ZADƏNİN QƏBİRÜSTÜ ABİDƏSİ



Dünya şöhrətli azərbaycanlı alim, qeyri-səlis çoxluqlar nəzəriyyəsinin və qeyri-səlis məntiqin banisi Lütfi Zadənin qəbirüstü abidəsi qoyulub.Abidəni məşhur heykəltəraş, Xalq rəssamı, akademik Ömər Eldarov hazırlayıb. O, abidənin orijinal və tamamilə fərqli üslubda olduğunu bildirib:

### LÜTFİ ZADƏNİN ANADAN OLMASININ 100 İLLİYİNƏ HƏSR OLUNMUŞ POÇT MARKASI




Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Fəxri üzvü, Berkli Universitetinin ömürlük professoru, İnformasiya Texnologiyaları İnstitutunun “İnformasiya Cəmiyyəti Problemləri” və “İnformasiya Texnologiyaları Problemləri” junallarının Fəxri baş redaktoru, dünya şöhrətli elm xadimi Lütfi Zadənin 100 illik yubileyi münasibəti ilə “Azərmarka” MMC tərəfindən dövriyyəyə buraxılan poçt markası maraqla qarşılanıb.

Qeyd edək ki, “Azərbaycanlı alim, qeyri-səlis məntiq nəzəriyyəsinin banisi Lütfi Zadənin 100 illiyi” poçt markasının rəssamı Vüqar Əyyubovdur. Yüz min tirajla dövriyyəyə buraxılan bu poçt markası Belarus Respublikasının “Bobruisk Integrated Printing House” nəşriyyat evində çap olunub.

## LÜTFİ ZADƏ ADINA BEYNƏLXALQ MÜASİR ELMLƏR AKADEMİYASI

Dünya şöhrətli azərbaycanlı alim **Lütfi Rəhim oğlu Ələsgərzadə (Lotfi A. Zadeh)**-nin elmi irsinə həsr olunmuş beynəlxalq elm qurumudur. Bu akademiya Lütfi Zadənin qeyri-səlis məntiq və yumşaq hesablamalar kimi sahələrdəki fundamental töhfələrini təbliğ etmək, onun nəzəriyyələrinin dərindən öyrənilməsi və tətbiqi ilə məşğul olmaq məqsədi ilə yaradılmışdır. Akademiya 1999-cu ildə Lütfi Zadenin adını daşıyan Müasir Elmlər Akademiyası kimi təsis olunub.2014-cü ildən bu qurum Lütfi Zadə adına Beynəlxalq Elmlər Akademiyası adı altında fəaliyyətini davam etdirir.

Akademiyanın məqsədi Lütfi Zadenin nəzəriyyələrinin (xüsusilə qeyri-səlis məntiq və yumşaq hesablamalar) elmi və praktiki tərəflərini dərindən öyrənmək, beynəlxalq səviyyədə bu bilikləri təşviq etmək və elmi əməkdaşlıqları gücləndirməkdir.Akademiyanın prezidenti akademik Asif Hacıyevdir və qurum Lütfi Zadenin xatirəsini yaşatmaq üçün müxtəlif tədbirlər (məsələn, anım günləri, konfranslar) keçirir.

## LÜTFİ ZADƏ ADINA BEYNƏLXALQ OLİMPİADA

LOTFIZADEH
OLYMPIAD
BAKU / AZERBAIJAN

Lütfi Zadə adına Beynəlxalq Olimpiada keçiriləcək.20-25 dekabr 2021-ci il tarixlərində dünya şöhrətli Azərbaycanlı alim, qeyri-səlis məntiq nəzəriyyəsinin banisi Lütfi Zadə adına Beynəlxalq Olimpiada keçiriləcək.

Lütfi Zadənin 100 illiyinə dair tədbirlər planı çərçivəsində nəzərdə tutulan olimpiada məktəblilər arasında riyaziyyat və informatika fənləri üzrə təşkil ediləcək. Olimpiadada dünyanın müxtəlif ölkələrindən məktəblilər iştirak edəcəklər. Onlayn keçirilməsi planlaşdırılan olimpiadaya yaşı 18-dən çox olmayan məktəblilər qatıla biləcəklər.

Qeyd edək ki, olimpiadanın keçirilməsində əsas məqsəd görkəmli alim Lütfi Zadə və onun elmə verdiyi töhfələr barədə dünya məktəblilərini daha çox məlumatlandırmaq, ayrı-ayrı ölkələrdən olan istedadlı gənclər arasında dostluq münasibətlərinin qurulmasını təmin etmək, məktəblilərdə riyaziyyat və informatika fənlərinin dərindən öyrənilməsinə maraq yaratmaqdan ibarətdir.

## LÜTFİ ZADƏ ADINA MƏKTƏBLİLƏRARASI MƏNTİQ OLİMPİADASI







## LÜTFİ ZADƏ ADINA KÜÇƏ

